**"Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəmərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə**

25.06.2012

**AZƏRBAYCAN RESPUBLIKASI**
**NAZIRLƏR KABINETI**

**QƏRAR**
**№ 142**

**Bakı şəhəri, 25 iyun 2012-ci il**

**"Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəmərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə**

"İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına baxılması, qəbul edilməsi vətəsdiqi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 483 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədi iləAzərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəmərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları" təsdiq edilsin (əlavəolunur).
2. Azərbaycan Respublikasının Rabitəvəİnformasiya Texnologiyaları Nazirliyinətapşırılsın ki, 1 ay müddətindəAzərbaycan Respublikası Nazirlər Kabinetinin vəmərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi üçün zəruri olan texniki imkanları təmin etsin.
3. Bu qərar imzalandığı gündən qüvvəyəminir.

**Azərbaycan Respublikasının Baş naziri  Artur Rasi-zadə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 iyun tarixli 142 nömrəli qərarı ilə **təsdiq edilmişdir**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəmərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi**

**Q A Y D A L A R I**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına baxılması, qəbul edilməsi vətəsdiqi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 483 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədi iləhazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikasının Nazirlər Kabineti vəmərkəzi icra hakimiyyəti orqanları (bundan sonra - informasiya sahibləri) tərəfindən hazırlanmış normativ hüquqi aktların layihələrinin (bundan  sonra - layihələr) "Elektron hökumət" portalında (bundan sonra - portal) yerləşdirilməsi, layihələrin açıq (ictimai vəya peşəkar) müzakirəsi (bundan sonra - müzakirə), həmçinin müzakirədəiştirak etmiş şəxslərəinformasiya sahibləri tərəfindən cavab verilməsi qaydalarını müəyyən edir.

1.3. Layihələr (əldəolunması qanunvericilikləməhdudlaşdırılan informasiyanı əks etdirən layihələr istisna olmaqla) razılaşdırılmağa göndərildiyi andan ictimai vəya peşəkar müzakirəyəçıxarılması məqsədi iləinformasiya sahibləri üçün portalda yaradılmış xüsusi bölmədəyerləşdirilir.

1.4. Layihələrin informasiya sahibləri tərəfindən portalda yerləşdirilməsi üçün zəruri olan texniki imkanlar Azərbaycan Respublikasının Rabitəvəİnformasiya Texnologiyaları Nazirliyi tərəfindən təmin edilir.

1.5. Normativ hüquqi aktların layihələri razılaşdırılmağa göndərildiyi andan bilavasitəhəmin layihəni hazırlamış dövlət orqanı tərəfindən portalda yerləşdirilir.

1.6. Layihənin müzakirəsindəiştirak etmək istəyən şəxslər portalda tələb olunan qeydiyyatdan keçməlidirlər.

## 2. Layihələrin portalda yerləşdirilməsi

2.1. Layihələrin portalda yerləşdirilməsini təmin etmək məqsədi iləinformasiya sahibi məsul şəxsi müəyyən edir vəonu elektron imza ilətəmin edir.

2.2. Məsul şəxs layihələrin portalda yerləşdirilməsi üçün elektron imzadan istifadəetməkləmüvafiq autentifikasiyadan keçməlidir.

2.3. Məsul şəxs bu Qaydalarla müəyyənləşdirilmiş texniki tələblərəuyğun olaraq, layihələri hazırlayır vəistifadətəlimatına uyğun qaydada portalın xüsusi bölməsinəyerləşdirir. İstifadətəlimatı portalın xüsusi bölməsindən əldəolunur.
2.4. Portalın xüsusi bölməsindəyerləşdirilmiş layihəportalın məsul şəxsi tərəfindən onun bu Qaydalarla müəyyənləşdirilmiş texniki tələblərəuyğunluğu yoxlanıldıqdan sonra müzakirəyəaçılır.
2.5. Layihətexniki tələblərəuyğun olmadıqda, portalın məsul şəxsi tərəfindən çatışmazlıqlar dəqiq göstərilməklə, 1 iş günü ərzindəinformasiya sahibinəməlumat verilir. İnformasiya sahibi tərəfindən 1 iş günü ərzindəçatışmazlıqlar aradan qaldırıldıqdan sonra layihə portalda yerləşdirilir.

## 3. Layihənin portalda yerləşdirilməsinədair texniki tələblər

Layihələrin portalda yerləşdirilməsi zamanı informasiya sahibi aşağıdakıları təmin etməlidir:
3.1.1. layihənin mətni İSO 10646 (Unicode) beynəlxalq standartına uyğun fontlardan istifadəedilərək hazırlanmalıdır;
3.1.2. layihəiləbirlikdəaşağıdakı məlumatlar portalda yerləşdirilməlidir:
3.1.2.1. informasiya sahibinin adı;
3.1.2.2. layihənin adı;
3.1.2.3. müzakirəmüddəti;
3.1.2.4. layihənin razılaşdırılmasında iştirak edən dövlət orqanlarının və təşkilatlarının siyahısı.
3.2. Portalın inzibatçılığını həyata keçirən orqan layihələrin portalda yerləşdirilməsi zamanı aşağıdakıları təmin etməlidir:
3.2.1. layihələrəsərbəst vəödənişsiz çıxış imkanını;
3.2.2. layihənin tam mətninin vəya onun istənilən fraqmentinin köçürülməsi vəaxtarışı imkanını;
3.2.3. layihəyədair portalda şəxslər tərəfindən verilmiş irad vətəkliflərin yalnız informasiya sahibi üçün açıq olmasını;
3.2.4. layihəiləəlaqədar irad vətəkliflər vermiş şəxslərəinformasiya sahibləri tərəfindən portal vasitəsiləcavab göndərilməsi üçün texniki imkanı.

## 4. Layihənin müzakirəsi

4.1. Layihənin hazırlanması üçün qanunvericiliklə vəya norma-yaratma orqanının tapşırığı ilə2 ay vəya daha az müddət müəyyən edildiyi hallarda  informasiya sahibi layihənin müzakirəsi üçün 5 gündən, digər hallarda isə10 gündən az vaxt müəyyənləşdirməməlidir.
4.2. Müzakirəmüddəti bitmiş layihələr portaldan çıxarılır.
4.3. Verilmiş irad vətəkliflər nəzərəalınmaqla layihəüzərindədəyişikliklər edildikdə, hazırlanmış yeni variant razılaşdırılmağa göndərildiyi andan bu Qaydalara uyğun olaraq portalda yerləşdirilir.
4.4. Layihənin yeni variantı razılaşdırılmağa göndərildikdən vəya təsdiq edilmək üçün normayaratma orqanına təqdim edildikdən sonra "Vətəndaşların müraciətlərinəbaxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu iləmüəyyən olunmuş müddət ərzindəirad vətəklifləri məqsədəuyğun hesab edilməyən  şəxslərə  layihəni portalda yerləşdirmiş dövlət orqanı tərəfindən bu barədəportal vasitəsiləəsaslandırılmış cavab göndərilir.
4.5. Müzakirəsi tam başa çataraq təsdiq üçün normayaratma orqanına təqdim edilmiş layihələrləəlaqədar yaranmış bütün məlumatlar arxivləşdirilir vəsiyahısı portalda saxlanılır.
4.6. Portalın fəaliyyətinin həyata keçirilməsi iləbağlı bu Qaydalarda nəzərdətutulmayan texniki məsələlər portalın fəaliyyətini nizamlayan sənədlərlətənzimlənir.